# YƏHYAYEV ELŞAD MƏMMƏDHƏNİFƏ OĞLU



5 may 1966-cı ildə Şəki şəhərində anadan olmuşdur. İlk təhsilini 1973-cü ildə doğma rayonlarındakı 12 saylı məktəbdə almış, sonra təhsilini Bakı şəhərindəki 56 saylı məktəbdə davam etdirmişdir. 1984 - 1986-cı illərdə hərbi xidmətdə olmuşdur. 1987-ci ildə Saratov Ali Hərbi Komandirlər Məktəbinə daxil olmuşdur. 1991-ci ildə məktəbi bitirərək, leytenant rütbəsi ilə vətənə qayıtmışdır. E. Yəhyayev torpaqlarımızın müdafiəsində iştirak etmək üçün DİN-ə müraciət edir. O, DİN-in Daxili Qoşunlarına taqım komandiri təyin edilir. E.Yəhyayev Sırxavənd, Naxçıvanik, Papravənd kəndlərində yüksək döyüş rəşadəti göstərmişdir. 1992-ci il iyunun 20-də E.Yəhyayevin taqımı Naxçıvanik kəndini düşməndən təmizləmək əmrini alır. Bu vaxt məlumat gəlir ki, döyüşçülərimizin bir hissəsi mühasirəyə düşüb. E.Yəhyayev cəld hücuma keçir. Ağır döyüşlər nəticəsində düşmən çoxlu sayda canlı qüvvə itkisi verərək geri çəkilir. Lakin bu döyüşdə Yəhyayev Elşad Məmmədhənifə oğlu qəhrəmancasına şəhid olur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Yəhyayev Elşad Məmmədhənifə oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 1993-cü ildən Bakı şəhər 56 saylı tam orta məktəb qəhrəmanın adını daşıyır. Həmçinin məktəbdə E.Yəhyayevin büstü qoyulmuşdur.